


# Sıfırdan biznes quranlara (girişimçilərə) dövlət dəstəyi

*Türkiyə təcrübəsi*

**Qalib Toğrul, İqtisadi Tədqiqatlar Mərkəzi**

# Dəstəyi həyata keçirən qurum

| Sahibkarlıq subyektlərinin ölçüsünə görə kateqoriyaları | İşçilərinin orta siyahı sayı (nəfər) | İllik gəliri (Milyon TL) |
|---|---|---|
| Mikro sahibkar | < 10 | ≤ 3 |
| Kiçik sahibkar | < 50 | ≤ 25 |
| Orta sahibkar | < 250 | ≤ 125 |

Türkiyə Cümhuriyyəti Bilim, Sənaye və Texnologiya Nazirliyi nəzdində fəaliyyət göstərən Küçük ve Orta Ölçekli İşletmeleri Geliştirme ve Destekleme İdaresi Başkanlığı (KOSGEB) 12 aprel 1990-cı ildə yaradlıb.

Yaradılarkən ilkin olaraq kiçik sahibkarlıq subyektlərinin (əsnaflar) inkişafını hədəf götürüb.

Hazırda yeni iş qurmaq istəyən və qurduğu işi böyütmək niyyətində olan sahibkarlara yardım üçün müxtəlif istiqamətli yardım proqramları həyata keçirir.

# KOSGEB tərəfindən həyata keçirilən dəstək proqramları

- **Girişimçilyi (sahibkarlığı) inkişaf etdirməyə Dəstək Proqramı;**
- **Ən yaxşı biznes plan mükafatı;**
- Müəssisələrin inkişafına Dəstək Proqramı;
- İşbirliyi Dəstək Proqramı;
- KOBİ Layihə Dəstək Proqramı;
- KOBİGEL – KOBİ-lərin İnkişafı Dəstək Proqramı;
- AR-GE, İnnovasiya Dəstək Proqramı;
- Tətbiqi Sənaye Dəstək Proqramı;
- KOBİ Texnoloji Sərmayə Dəstək Proqramı;
- Tematik Layihə Dəstək Proqramı;
- İnkişaf edən Müəssisələr Bazarı KOBİ Dəstək Proqramı;
- Beynəlxalq Biznes İnkubator Dəstək Proqramı;
- Texnobazar Dəstək Proqramı;
- Strateji Məhsul Dəstək Proqramı;
- Kredit Faizi Dəstəyi;
- Laboratoriya Xidmətləri.



## Girişimçiliyə (sahibkarlığa) Dəstək Proqramı ***<u>NİYƏ</u>*** Girişimçilyi (sahibkarlığı) inkişaf etdirməyə Dəstək Proqramı oldu?

1. Ənənəvi girişimçilərə (sahibkarlara) dəstək

**60 min TL**

2. İrəli (innovasiya tətbiq edən) girişimçilərə (sahibkarlara) dəstək

**370 min TL**

Ənənəvi girişimçilər 1 təlim kursu, İrəli girişimçilər 2 təlim kursu keçməlidir

**Texnologiya**

1. Aşağı
2. Ortadan aşağı
3. Ortadan yüksək
4. Yüksək

Ənənəvi girişimçilər, adətən ticarət və xidmət sferasında, İrəli girişimçilər isə emal sənayesində fəaliyyət göstərirlər



# Girişimçilyi (sahibkarlığı) inkişaf etdirməyə Dəstək Proqramı – Məqsəd

**Proqramın məqsədi**

Girişimçilərin biznesin qurulması və idarə olunması sahəsində bilik və bacarıqlarını artırmaq, uğurlu biznes planları və biznes modelləri mükafatlandırmaq, sahibkarlıq mühitində yer alan iştirakçılar arasında əməkdaşlığı gücləndirmək, yeni yaradılan biznes subyektlərini ən həssas dövrdə dəstəkləmək, beynəlxalq plan və proqramlar əsasında yeni müəssisələrin yaradılmasını və dayanıqlı olmasını təmin etməkdir.



# Girişimçilyi (sahibkarlığı) inkişaf etdirməyə Dəstək Proqramı

- **Ənənəvi girişimçilərə** verilən dəstəklər təsis olunma və perfomans dəstəkləridir. **İnnovasiya tətbiq edən girişimçilərə** verilən dəstəklər isə daha çoxşahəlidir. Bura təsis olunma, perfomans, avadanlıq, təchizat, proqram yazılması və məsləhət dəstəkləri daxildir.

---

- *Girişimçinin yaşı 30-dan aşağıdırsa, fiziki məhdudiyyəti varsa, qadındırsa, müharibə veteran və şəhid qohumudursa, onlara əlavə olaraq - fiziki şəxsdirsə, 5 min TL, hüquqi şəxsdirsə, 10 min TL yardım olunur.*

---

- **Bu proqram çərçivəsində bütün dəstəklər əvəzsiz verilir.**

- Perfomans dəstəyinin miqdarı sosial sığorta ödəmələrinin məbləğindən asılı olaraq dəyişir.



# Girişimçilərin proqrama müraciət etməsi üçün KOSGEB tərəfindən qoyulan şərtlər



- Müraciət tarixinə müəssiənin son 1 ildə təsis olunması;
- Girişimçinin daha öncə bur proqramdan faydalanmaması;
- Girişimçinin müraciət tarixindən 3 il öncəyədək hazırkı müəssisə istisna olmaqla, fiziki şəxs kimi vergi qeydiyyatının və hansısa hüquqi şəxsdə 30% və daha artıq iştirak payının olmaması;
- Ənənəvi girişimçilik təliminin məzunu olması;
- Proqrama müraciət etdiyi müəssisədə təsis payının ən azı 50% olması və proqram müddətində 50%-də aşağı düşməməsi.

# Girişimçilyi (sahibkarlığı) inkişaf etdirməyə Dəstək Proqramı: Addımbaaddım

**1-ci addım.** Təlim;

**2-ci addım**. Vergi ödəyicisi kimi qeydiyyata durmaq (şirkət qurmaq);

**3-cü addım.** Məlumat bazasında (e-kobi.com.tr-də) qeydiyyatdan keçmək;

**4-cü addım.** Girişimçiyə kod, parol verilir və KOSGEB tərəfindən məsləhətçi təyin olunur;

**5-ci addım:** Girişimçi dəstəyi üçün müraciət olunur, dəstək üçün tələb olunan sənədlər (xüsusilə, xərclər barədə) təqdim olunur;

**6-cı addım.** Dövlət dəstəyi barədə qərarın verilməsi.



# Girişimçilyi (sahibkarlığı) inkişaf etdirməyə Dəstək Proqramı: TƏLİM



- **Təlimlər KOSGEB** və onun əməkdaşlıq etdiyi Universitetlər, Bələdiyyələr, Türkiyə İş Qurumu, İnkişaf Agentlikləri, Sahibkarların Peşə Birlikləri və digər qurumlar tərəfindən təşkil olkuna bilər.
- **KOSGEB xaricində** təlim keçmək istəyən qurumlar təlimin başlama tarixindən ən azı 15 gün öncə hər auditoriya üçün ən çoxu 3 təlimçi müəyənləşdirərək KOSGEB-ə mqraciət edə bilər.
- **Bir auditoriyada** ən çoxu 30 nəfər ola bilər.
- **Bir təlim proqramında** ən çoxu 4 sinif açıla bilər.

# Girişimçilyi (sahibkarlığı) inkişaf etdirməyə Dəstək Proqramı: TƏLİM

1. Təlimə KOSGEB üzərindən elektron müraciət olunur;
2. Müraciət edən yaşadığı yer üzrə təlimin təşkilatçısı olan qurum tərəfindən intervyüyə çağrılır:

***İntervü nə üçün keçirilir?;***

1. Ənənəvi girişimçilik təliminin müddəti 32 saatdır;
2. Təlim üçün 18 yaşına çatmış TC vətəndaşları  müraciət edə bilər.

***Tavan yaşı müəyyən edilməyib?****;*

1. Təlimlər ödənişsizdir;
2. Təlimin mövzuları ***(Ənənəvi girişimçilik təlimində)*** əsas anlayışlar, orijnal ideyanın tapılması və inkişaf etdirilməsi, müştəri analizi, rəqabət, sahibkarlıq hüququ, etikası, bazarların öyrənilməsi, müəssiələrin idarə olunması, gəlirlərin, xərclərin uçotu və sair,

***CƏMİ 8 DƏRS.***

# Girişimçilyi (sahibkarlığı) inkişaf etdirməyə Dəstək Proqramı: TƏLİM

Təlimin mövzuları ***(İrəli girişimçilik təlimində):*** Şəbəkələşmə, Sahibkarlığın maliyyə əsaslarının müəyyənləşdirilməsi və idarə olunması, yeni maliyyə mənbələrinin tapılması, yeni idarəetmə formaları, Əqli mülkiyyət hüquqları, Starteji planlaşdırma, Biznesin böyüdülməsi və sair

***CƏMİ 8 DƏRS.***



# Girişimçilyi (sahibkarlığı) inkişaf etdirməyə Dəstək Proqramı



# “Ən yaxşı biznes plan” yarışması mükafatı

**Ən yaxşı piznes plan mükafatı** KOSGEB-in təlimlərinə qatılanlar arasından (KOSGEB-lə əməkdaşlıq edən ali təhsil ocaqlarının təşkilatçılığı ilə) və ölkə daxilində və ya xaricində fəaliyyət göstərən qurumlar təəfindən təşkil edilən yarışmalarda iştirak edənlər arasından seçilərək verilir.

*1. Ali təhsil müəssiələri ilə keçirilən yarışmalarda verilən*

*2. Ölkə daxilində və ya xaricində fəaliyyət göstərən qurumlar tərəfindən keçirilən yarışmalarda verilən*

*1-ci yer 25 min TL;*

*2-ci yer 20 min TL;*

*3-cü yer 15 min TL.*

**Biznes plan yarışmasında qalib gələnlər 24 ay müddətində bizneslərini qurmalıdırlar!**

**Kənd təsərrüfatı və əyləncə sektorları ilə bağlı biznes planla bu yarışmada iştirak qadağandır!**

# Sahibkarlara göstərilən yardımın dəstək növlərinə uyğun paylanması - 2018



# Sahibkarlara göstərilən yardımın onların ölçüsünə uyğun paylanması - 2018



# Sahibkarlara göstərilən kredit faizi dəstəyinin onların ölçüsünə uyğun paylanması - 2018



# Girişimçilyi (sahibkarlığı) inkişaf etdirməyə Dəstək Proqramı – rəqəmlər



**2010-2018-ci illərdə** 1 milyon 500 min nəfərə sahibkarlıq fəaliyyəti ilə bağlı təlim keçirilib.

**2010-2018-ci illərdə** təlimi uğurla başa vuranlara 2 milyard TL dəstək verilib.

**2018-ci ildə** 48.946 nəfər girişimçi dəstək üçün müraciət edib, onlardan 41.453 nəfərinə müsbət cavab verilib.

Yalnız 2019-cu ildə sahibkarlıq subyektlərinə bütün dəstək proqramları üzrə 2 milyard 250 milyon TL dəstək verilməsi nəzərdə tutulurdu.

# Girişimçilyi (sahibkarlığı) inkişaf etdirməyə Dəstək Proqramı – rəqəmlər

- **2018-ci ildə** 31.790 yeni yaradılan sahibkarlıq subyektinə 596.332.602 TL dəstək göstərilib.
- **2018-ci ildə** bu istiqamət üzrə dəstək almış müəssisələrin 86%-i dayanıqlı olub.
- **2018-ci ildə** bu istiqamət üzrə dəstək alanların 23%-i emal sənayesində fəaliyyət göstərir.

**Yalnız 2019-cu ildə** sahibkarlıq subyektlərinə bütün dəstək proqramları üzrə 2 milyard 250 milyon TL dəstək verilməsi nəzərdə tutulurdu

# Girişimçilyi (sahibkarlığı) inkişaf etdirməyə Dəstək Proqramı – uğur hekayələri

**Çələng istehsalı, ixrac yönümlü**





**Tablet istehsalı, idxalı əvəzləyən, ayda 5 min ədəd**